Ölkəmizin müxtəlif bölgələrindən gələn olimpiada iştirakçılarının və onların valideynlərinin təəssüratlarını təqdim edirik.

**Həbibova Lamiyə, Gəncə şəhəri, 25 nömrəli məktəbin şagirdi, tarix fənni**

- İmtahanların keçirilməsi üçün çox yaxşı şərait yaradılıb. Dünəndən burdayıq. Yaxşı istirahət edib imtahana açıq zehinlə başladım. Əminəm ki, yaxşı yer tutacam.

**Dadaşov Taleh, Bakı şəhəri 271 nömrəli tam orta məktəbin şagirdi, Azərbaycan dili və ədəbiyyat**

- Suallar maraqlı idi, sakit şəraitdə hamısını həll elədim. İmtahandan bir gün qabaq burda olmağımız əməlli-başlı bizim üçün maraqlı günə çevrildi.

**Kərimova Türkan, Mingəçevir şəhəri 5 nömrəli orta məktəbin şagirdi, Azərbaycan dili və ədəbiyyat fənni**

- Mingəçevirdən bura gələndə çox həyəcanlı idim. Amma qarşılanma xoşuma gəldi. Bir gün qabaqdan burdayıq. Yaxşı dincəldim, yaxşı vaxt keçirdik, bu gün imtahana da həvəslə girdim. Yer tutacağımı gözləyirəm.

**Məmmədli İlhamə, Tovuz rayonu 1 nömrəli tam orta məktəbin şagirdi, tarix fənni**

- Təşkilatçıların bizə qayğısı xoşuma gəldi. Bura gələndə ancaq imtahanı fikirləşirdim və həyəcanlanırdım. Ancaq gəldik bura, bir gün qaldıq, əyləndik və imtahan həyəcanı demək olar ki yox oldu.

**Məmmədova Cəmilə, İsmayıllı rayonu Xankəndi məktəbin şagirdi, coğrafiya fənni**

- İmtahanda yaxşı iştirak etdim, düzdü, narahatam nəticəmdən. Burda elə gözəl gün keçiririk ki, gələndən həyəcanım yox olub.

**Şahverənova Simarə, Cəbrayıl rayonu Xanış Rüstəmov adına orta məktəbin şagirdi**

- İlk dəfə idi ki, imtahana həvəslə girirdim. Burda keçirdiyimiz anlar mənim xatirimdə həmişəlik qalacaq.

**Həsənov Muxtar, Astara rayonu 3 saylı tam orta məktəbin şagirdi, tarix fənni**

- Bu dəfəki olimpiada mənim üçün təkcə imtahandan ibarət olmadı. Burda mən müxtəlif rayonlardan yaşıdlarımla tanış oldum, birlikdə gəzdik, oyunlarda iştirak etdik. Çox maraqlıdı.

**Hüseynova Gülbəniz, Cəbrayıl rayonu 10 nömrəli tam orta məktəbin şagirdi, tarix fənni**

- Olimpiada sualarını hamısını yazmışam. Yer tutacağıma əminəm. Dünəndən burdayıq, xeyli dost qazandım bu dəfəki olimpiadada.

**Əmirov Ülvi, Göygöl rayonu 3 nömrəli tam orta məktəbin şagirdi, biologiya fənni**

- Birinci dəfədir ki, belə maraqlı bilik yarışında iştirak edirəm. Ümumilikdə, olimpiadanın belə təşkili çox xoşuma gəldi. Burda keçirdiyim günlər yadımdan çıxmaz.

**İsmayılova Sima, Bakı şəhəri**

- Bu olimpiadada mənim qızım Aygül iştirak edir. O 204 nömrəli məktəbdən bu yarışmaya qatılıbdır. Olimpiadanın təşkilatçılarına öz təşəkkürümü bildirmək istəyirəm. Qarşılanma və yerləşdirmə xoşuma gəldi.

**Hacıyeva Rəhimə, Yevlax rayonu**

- Nəvəmi olimpiadaya gətirmişəm. Uşaq artıq 2 gündü bu oteldə qalır. Xoşuna gəlib, biz də rahatıq ki, rayondan gələnlərə belə şərait yaradıblar.

**Musayeva Maral, Tovuz rayonu**

- Qızım Səidə Aşağı Quşçu kəndində oxuyur. Onu olimpiadaya gətirmişəm. Rayonda yüksək bal toplayıb finala çıxıb. Sevinirik ki, qızım finala düşüb, qızımın isə burdan xoşu gəlib.